# AZƏRBAYCAN RESPUBLİKASI
# NAXÇIVAN MUXTAR RESPUBLİKASI
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Naxçıvan Muxtar Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 25 avqust tarixli 82 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin “Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Qiymətli Metallar və Qiymətli Daşlara Nəzarət İdarəsinin ləğv edilməsi barədə” 2023-cü il 01 mart tarixli 279-06/S nömrəli və “Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında “ASAN xidmət” Mərkəzinin ləğv edilməsi haqqında” 2023-cü il 19 may tarixli 310-06/S nömrəli sərəncamlarının 2-ci hissəsinə əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 25 avqust tarixli 82 nömrəli Qərarı ilə təsdiq edilmiş 2 nömrəli əlavə - “Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)” cədvəlində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissənin “Cəmi” sütunu üzrə “14” rəqəmləri “13” rəqəmləri ilə, “yanında olan orqanlar üzrə” sütunu üzrə “3” rəqəmi “2” rəqəmi ilə əvəz edilsin;

1.2. 23-cü hissə ləğv edilsin.

1.3. “Cəmi” hissəsinin “Cəmi” sütunu üzrə “118” rəqəmləri “115” rəqəmləri ilə, “aparat üzrə” sütunu üzrə “75” rəqəmləri “73” rəqəmləri ilə və “yanında olan orqanlar üzrə” sütunu üzrə “3” rəqəmi “2” rəqəmi ilə əvəz edilsin.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, 1 sentyabr 2023-cü il

№ 117